

Bakı Sərgi Mərkəzində təşkil olunmuş XX Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisinin iştirakçılarından biri olan Azərbaycan Metanol Şirkəti (AzMeCo) ilk məhsulunu bazara çıxarmağa hazırlaşır.

Bu barədə AzərTAc-a məlumat verən şirkətin nümayəndəsi Nahid Abbaszadə bildirmişdir ki, zavod gündə 2 min ton metanol istehsal edəcəkdir. İlk vaxtlar müəssisə istehsal gücünün 60 faizi həcmində, bir qədər sonra isə tam həcmdə işləyəcək və bazara ildə 720 min tona qədər metanol çıxaracaqdır.

N.Abbaszadə qeyd etmişdir ki, istehsal olunan məhsulu dünya bazarlarına çıxarmaq üçün Gürcüstan və Türkiyədə xüsusi terminallar tikilir. Terminallar 30 min ton metanol məhsulunun saxlanılması üçün nəzərdə tutulmuşdur. Burada hər ay 60 min tondan artıq məhsulu yükləyib boşaltmaq mümkün olacaqdır.

Şirkət nümayəndəsinin verdiyi məlumata görə, ötən il Londonda keçirilmiş “Xəzər dəhlizi” konfransında (Caspian Corridor Conference) Britaniyanın BP şirkəti ilə metanolun alqı-satqısına və marketinqinə dair niyyət memorandumu imzalanmışdır.